Azərbaycan Dövlət İqtisad Universiteti
«Beynəlxalq İqtisadi Münasibətlər» kafedrası

# DÜNYA İQTİSADİYYATI



i.e.d., prof. Hacızadə Elşən Mahmud olğu

BAKI - 2011

# Dünya iqtisadiyyatının *genezisi*



## Mövzunun planı

- 1.Bəşəriyyətin iqtisadi inkişaf tarixinə nəzəri-metodoloji baxışlar.
- 2.Dünya iqtisadiyyatının formalaşmasının ilkin müqəddəm şərtləri.
- 3.Dünya iqtisadiyyatının formalaşma mərhələləri.
- 4.Dünya iqtisadiyyatının təşəkkül və inkişaf xronologiyasının konseptual ümumiləşdirilməsi.

# Dünya təsərrüfatının tarixi

## Qədim lokal təsərrüfat sistemlərinin *yaranışı* və *süqutu*

### İlkin təsərrüfatçılıq məkanları

*1. Nil çayı vadisi.*
*2. Dəclə və Fərat çayları vadisi.*
*3. Qanq çay; vadisi.*
*4. Xuanxe çayı vadisi.*



### Sonrakı təsərrüfatçılıq məkanları

*1. Yunanistan vı İtaliya əraziləri.*
*2. Latin Amerikası əraziləri.*



# Qədim dünyada əsas təsərrüfatlar və iqtisadi əlaqələr

- Əkincilik və heyvandarlıq.
- Əlvan metal hasilatı və emalı
- Əmək alətləri və silah hazırlanması
- Toxuculuq
- Gəmiqayırma



# INSANIN TƏSƏRRÜFAT HƏYATININ PARADİQMALARI

## Formasiya paradiqması







## Sivilizasiya paradiqması

# İctimai-iqtisadi formasiya

*Əsasında sosiumun müvafiq istehsal üsulu dayanan cəmiyyətin tarixi formalaşmış tipi*



**Formasiya** *öz varlığını növbəti yeni formasiyaya keçidlə davam etdirir.*

*Formasiya paradiqmasının əsasında* **İctimai-iqtisadi formasiya** *kateqoriyası dayanır.*

# İctimai-iqtisadi formasiya

**İctimai-iqtisadi formasiya** özündə maddi nemətlərin istehsal üsulunu, istehsal gücləri, istehsal vasitələri olan - **bazisi** və müvafiq siyasi oriyentasiya - **üstqurumu** birləşdirir.

**«Formasiya»** istilah olaraq **Karl Marks** tərəfindən ictimai elmlərə **geologiyadan** gətirilmişdir.

## İctimai-iqtisadi formasiyalar




- **İbtidai icma**;
- **Quldarlıq;**
- **Feodalizm**;
- **Kapitalizm;**
- **Kommunizm** - *iki fazada:* ***Sosializm*** *və* ***Kommunizm*****.**

# Sivilizasiya

- ***SVILIZASIYA*** - anlayışını XVIII əsrdə barbarlıq anlayışına əks olaraq fransız mütəfəkkirləri yaratmışlar.
- Bu zamanlar düşüncə obyekti olaraq sivilizasiya ilk interpretasiyada qədim tarixin vəhşilik, barbarlıq mərhələsindən sonrakı - III dövrü ifadə edirdi.
- Müasir zamanda sivilizasiya termini özünün ilkin mənasını praktiki olaraq itirmiş və o, hazırda yüksək tarixi və coğrafi mədəniyyətlər məcmusunu ifadə etməkdədir.
- Yeni reallıqlardan çıxış edərək ismin tək halında ***«sivilizasiya»*** anlayışı ilə cəm hallı *«sivilizasiyalar»* məfhumlarını da fərqləndirmək gərəklidir.
- Sivilizasiya cəmiyyəti primitivdən oturaq, şəhər və maarifli cəhətləri ilə fərqlənmişdir.
- Sonradan sivilizasiya haqqında müxtəlif sivilizasiyaların yaranışı ilə bağlı olaraq cəm halında danışmağa başlamışlar.
- Sivilizasiyon yanaşma cəmiyyət inkişafını ənənəvi, industrial və postindustrial olan formatda ehtiva edir.







# Natural təsərrüfatçılıqdan əmtəə-pul münasibətlərinə keçid

Bizim eradan əvvəl *IV minillikdə* Qədim Şərqdə artıq quldarlıq quruluşu intişar mərhələsinə qədəm qoymuşdu.

Bu cəmiyyət formasının yaranışı öz növbəsində natural təsərrüfatçılıqdan əmtəə-pul münasibətlərinə keçidə rəvac vermiş, icma, dövlət və şəxsi mülkiyyətin qarşılıqlı ünsiyyətini yeni inkişaf mərhələsinə yüksəltmişdi.



# Klassik istehsal üsulu

Qədim Şərqdə dövlətin təsərrüfat həyatında, xüsusən də əkinçilikdə irriqasiyanın tənzimlənməsində iştirakı klassik və spesifik istehsal üsulunun yaranışını təyinatlı etmişdir. Bu istehsal nümunəsi iqtisad elmi tarixinə ***«Asiya istehsal üsulu»*** kimi pərçimlənmişdir.



# «Asiya istehsal üsulu»

Qədim Şərqdə dövlətin təsərrüfat həyatında, xüsusən də əkinçilikdə irriqasiyanın tənzimlənməsində iştirakı formasında yaranan istehsal ukladı.



**Əsas əlamətləri**

- *təsərrüfat həyatının nizamlanmasında dövlətin aparıcı rolu;*
- *səxsi əmlak toxunulmazlığı;*
- *ticarət məhdudluğu kimi xüsusi istismar üsullu*.

«Asiya istehsal üsulu»nun mahiyyəti fundamental kontekstdə tam açılmamış qalmaqdadır.

# ANTİK İQTİSADİYYAT



*ANTIK ISTEHSAL ÜSÜLU* Şərqin sosial-iqtisadi strukturundan özəl mülkiyyət formasında olması ilə fərqlənir. Onun ictimai olan tərəfləri də mövcuddur.

*ANTIK ISTEHSAL ÜSÜLUNUN* arealında iqlim əlverişliliyi əkinçilikdə müvafiq irriqasiya sistemlərinin yaradılmasını ehtiyacsız etmişdir.

*ANTIK ISTEHSAL ÜSÜLU* daha çox şəhər-dövlət tipli formasında çıxış etmiş və burada geniş olaraq qul əməyindən istifadə edilmişdir.

# ANTİK İQTİSADİYYAT

*Antik iqtisadiyyatın* ***yaranışı bizim eradan əvvəl IX əsr, böhranı bizim eranın II əsrinin sonu.***



*Antik iqtisadiyyatın* ***coğrafiyası Yunanıstan və Roma.***

*Antik* ***mülkiyyətçi özü-özlüyündə müstəqil olmayaraq şəhər-dövlətin tərkib hissəsi kimi çıxış etmişdir.***

*Antik iqtisadiyyatda* ***sənətkarliq emalatxana formasında olaraq kənd təsərrüfatından ayrılıqda fəaliyyət göstərmişdir.***



# Orta əsrlər iqtisadiyyatı

*Quldarlıq* cəmiyyətlərinin çökməsi ictimai həyatın yeni şərtləri zəminində feodal epoxasının iqtisadi dönüşünü formalaşdırdı.

*Feodal* iqtisadiyyatının bazisini kəndli və sənətkarların xırda istehsalı, feodalların torpaq mülkiyyəti və xarici iqtisadi əlaqələr zərurəti təşkil edirdi.

Natural təsərrüfatın hökm sürdüyü feodal iqtisadiyyatı məxsusi xarakterli olaraq, ruhanilərin yaranış verdikləri dini-ideoloji çərçivədə formalaşmışdı.



# *Şərq* və *Qərbin* İqtisadi inkisaf səviyyələri

**II minilliyin başlanğıcında Şərq ölkələrində inkişaf səviyyəsi Avropadan 1,5- 2 dəfə yüksək idi.**

**İstehsal üsulunun intellektual komponentlərinə və savadlılıq səviyyəsinə görə Şərq Avropanı 8-20 dəfə üstələyirdi.**

**Hesablamalara görə 1980-ci illərin qiymətləri ilə XI əsrdə ÜDM-in adambaşına bölgüsü Çində 600-700$, Hindistanda 550-600$, Misirdə 470-530$ təxmin edilir.**



# Kapitalizm




***Kapitalizm*** - şəxsi mülkiyyət və azad rəqabətin hökm sürdüyü iqtisadi sistem.

Avropa, ABŞ, Yaponiya, Avstraliyada intişar tapmışdır.

***Kapitalizmin*** ilkin əlamətləri Qədim Romada müşahidə olunmuş və ticarətin, sənayeləşmənin, bank işinin təşəkkülü ilə XV əsrdə daha təzahürlü gerçəkliyə çevrilmişdir.

XVII əsrin sənaye inqilabı ***kapitalist*** münasibətlərinin inkişafında yeni amil olmuşdur.

***Kapitalizm*** azad sahibkarlıq və yaxud «xalis kapitalizm» formasında nisbətən XIX əsrdə Böyük Britaniya iqtisadiyyatında görünmüşdür.

# Sosializm

İstehsal prosesi və gəlirlərin bölgüsü ictimai nəzarətdə olan iqtisadi və sosial-siyasi sistem.

Tam və ya qismən özəl mülkiyyəti əvəz edən istehsal vasitələri üzərində ictimai mülkiyyətə əsaslanır.



# Kommunizm




Tam bərabərlik, istehsal vasitələri üzərində ictimai mülkiyyət üzərində qurulan hipotetik ictimai-iqtisadi cəmiyyət.

Əsas prinsipi «hər kəsə bacarıq və tələbinə görə».

Praktiki baxımdan belə bir cəmiyyətin hər hansı bir ölkədə formalaşdırılması mümkün olmamışdır.

# SOSİALLAŞAN İQTİSADİYYAT



ELŞƏN HACIZADƏ

# Dünya iqtisadiyyatının dünya bazarının yaranışı ilə bağlı formalaşması mərhələləri

## I mərhələ - *XV-XVIII* əsrlər

### Dövrün əsas hadisələri

- Dünya kapitalist bazarının yaranışı.
- Manufaktura təsərrüfatının təşəkkülü və inkişafı;
- Böyük coğrafi kəşflər;
- Müstəmləkə ekspansiyaları.



# Dünya iqtisadiyyatının dünya bazarının yaranışı ilə bağlı formalaşması mərhələləri

## II mərhələ - *XVIII-XIX* əsrlər



### Dövrün əsas hadisələri

- Manufakturadan fabrik sisteminə keçid;
- Sənaye inqilabları;
- Burjua inqilabları.

.

# Kapital ixracı



*XIX* əsrin ortalarında

Avropa ölkələrindən *kapitalın ixracı* geniş miqyas aldı.

*Kapitalın* əsas hissəsi dövlət istiqrazları olmaqla infrastruktur qurmasına, xüsusən də dəmiryol çəkilişlərinə yönəldi.

*Kapital ixracının* yarıdan çoxu Latin Amerkası, Asiya, Afrika, Okeaniya ölkələri və 24% Şilmali Amerikaya axın etdi.

*Kapital ixracı* qızıl standartının yaranışına rəvac verdi və bir sıra milli valyutaların qızıla konvertasiyasına yol açdı.

# Dünya iqtisadiyyatının dünya bazarının yaranışı ilə bağlı formalaşması mərhələləri

**III mərhələ** - ***XIX əsrin sonu - XX əsrin I yarısı***

**Dövrün əsas hadisələri**

- Dünya təsərrüfatının sistem olaraq formalaşması;
- İstehsala elektrik enerjisinin tətbiqi;
- Daxili yanma mühərriklərinin tətbiqinin genişləndirilməsi və maşın sistemlərin yaranısı;
- Material infrastrukturun inkişafı;
- Dünyanın iqtisadi cəhətdən bölüşdürülməsi;
- İnhisarçı kapitalizmə keçid.



# Dünya iqtisadiyyatının dünya bazarının yaranışı ilə bağlı formalaşması mərhələləri

## **IV mərhələ** - *XX əsrin 50-ci illərindən bəri*

### Dövrün əsas hadisələri

- **Beynəlxalq Əmək Bölgüsü sisteminin yeni formalarının təşəkkülü;**
- **Təsərrüfat həyatının beynəlmiləlləşməsi;**
- **Ölkələrin iqtisadiyyatının qarşılıqlı asılılığının artması;**
- **İnhisarçı kapitalizmin korporativləşməyə tran**
- **Qloballaşma prosesi;**
- **Texnoloji inqilablar, innovasiyaların inkişfı.**



# Dünya iqtisadiyyatının formalaşmasının XIX-XXI əsrlər mərhələsi

## Dövrün ən mühüm hadisələri

- Dünyanın ərazi cəhətdən bölüşdürülməsinin başa çatması;
- Müstəmləkə sisteminin dağılması;
- Beynəlxalq iqtisadi təşkilatların təşəkkülü;
- Beynəlxalq valyuta sistemlərinin yaranması;
- Avropa valyuta sisteminin yaranması;
- Dünya iqtisadi böhranların təsir gücünün artması;
- Qloballaşma və onun dərinləşməsi.



## Dünya iqtisadiyyatının təşəkkülü və inkişaf xronologiyasının konseptual ümumiləşdirilməsi

**Xronoloji dövrlənmənin iki böyük mərhələsi**

***1.Natural təsərrüfat.***

***2.Bazar iqtisadiyyatı.***



**Qlobal iqtisadiyyatın formalaşması prosesi**

# Natural İqtisadiyyat

**Təsərrüfatçılığın primitiv tipi**

Natural iqtisadiyyatda istehsal satışa deyil, yalnız şəxsi ehtiyacların ödənilməsinə yönəlir.

**Xarakterik xususiyyəti**



- Əmək bölgüsünün inkişaf etməsi;
- Xarici aləmdən təcrid olunma;
- İstehsal vasitələri və işçi qüvvəsi ilə özünütəminat;
- Natural iqtisadiyyatda bazara ehtiyac olmur.

# Bazar İqtisadiyyatı

**Bazar İqtisadiyyatı** - azad təsərrüfatçılıq



***Bazar iqtisadiyyatının üç modeli***

- ***1. Liberal bazar iqtisadiyyatı modeli***

- **xüsusi mülkiyyətin iqtisadiyyatda payının çox olması;**
- **dövlət tənzimlənməsinin məhdud xarakter daşıması;**
- **ümumi milli məhsulda dövlət büdcəsinin payının az olması.**

- ***2. Sosial yönümlü bazar iqtisadiyyatı***

- bazar subyektlərinin fəaliyyətinin ayrı-ayrı sahələrinin dövlət tərəfindən tənzimlənməsi;
- hər bir vətəndaşa pulsuz təhsi, səhiyyə xidməti alması hüquqlarının həyata keçirilməsi;
- məşğulluğun tənzimlənməsi və ÜMM-də dövlət büdcəsinin xüsusi çəkisinin çox olması.

- ***3. Sosial-demokrat yönümlü bazar iqtisadiyyatı***

- **sosial yönümlü bazar iqtisadiyyatı modeli ilə demək olar ki, eynidir. Buna baxmayaraq, bu model üçün dövlət mülkiyyətinin həddən artıq çox olması xarakterikdir. Bazar iqtisadiyyatının bu modeli ən çox İsveçrədə tətbiq olunduğundan ona bəzən İsveç modeli də deyilir.**

# Qloballaşma

- Dünya təsərrüfatının, əmtəə və xidmətlərin, kapital və işçi qüvvəsinin, biliyin təcəssümündə vahid bazara çevrilməsi;
- Qloballaşdırma həm də  daha çox kriminal sindikatlara gəlir gətirir;



- Qloballaşma mahiyyətcə beynəlmiləlləşmənin yüksək fazası kimi müəyyən mənada dünyada yoxsulluğun artmasına zəmin yaradır və bu əsnada yerlərdə çoxlu protestlərlə müşayiət olunur.

# Əsas anlayışlar



- **Formasiya;**
- **Sivilizasiya;**
- **«Asiya istehsal üsulu»;**
- **Antik iqtisadiyyat;**
- **Qloballaşma.**

# TƏKRAR



- İctimai-iqtisadi formasiya və sivilizasiya paradiqmaları;
- İlkin təsərrüfatçılıq məkanları;
- Sonrakı təsərrüfatçılıq məkanları;
- Qədim dünyada əsas təsərrüfatlar və iqtisadi əlaqələr;
- Dünya iqtisadiyyatının dünya bazarının yaranışı ilə bağlı formalaşması mərhələləri.

# Mövzunun ədəbiyyat siyahısı




1. Hacıyev Ş.H. Bayramov Ə.İ. İqtisadiyyat fəlsəfəsi, Bakı: 2008. 000 s.
2. Hacızadə E.M. Sosiallaşan iqtisadiyyat, Bakı: Elm, 2006. 509 s.
3. Kərimov C. Orucov A., İsrafilov H. Dünya iqtisadiyyatı, dərslik (*İkinci nəşr*), Bakı: «Nurlan nəşriyyatı», 2007. 728 s.
4. Nikolayeva İ.R. Dünya iqtisadiyyatı. Bakı: 2010. 000 s.
5. Seyidoğlu H. Uluslararası İktisat: Teori, Politika ve Uygulama. İstanbul, 2009 (*türk dilində*).
6. Örnek İ., Taş S., Yıldırım M. Geçiş Ekonomileri. Ekin Yayınevi, Bursa, 2008 (*türk dilində*).
7. Appleyard D.R., Field A.J. International Economics. McGraw-Hill, Irwin, 2001 (*ingilis dilidə*).
8. H.V.D. International Economics. McGraw-Hill, Irwin, Boston, 2004 (*ingilis dilidə*).
9. Ломакин В.К. Мировая экономика, М.: ЮНИТИ, 2007. 410 с. (*rus dilində*).
10. Мировая экономика (*под редакцией проф. А.С.Булатова*), М.: Экономисть, 2007. 860 с. (*rus dilində*).
11. Под. ред. Р.И.Хасбулатова. Мировая экономика и международные экономические отношения. В 2 частях. Изд. Гардарики, М.: 2006. 720 с. (*rus dilində*).
12. The World Economy (ABŞ - *ixtisaslaşmış elmi jurnal* - *ingilis dilində*).
13. www.un.org. - Birləşmiş Millətlər Təşkilatı (*rus dilində*).
14. www.europa.eu. - EU - Avropa İttifaqı (*ingilis dilində*).
15. www.oecd.org. - OECD - İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (*ingilis dilidə*).
16. www.worldeconomy.ru - Kütləvi İnformasiya Vasitələri dünya iqtisadiyyatı haqqında *(rus dilində).*



# SON

# TƏŞƏKKÜR EDİRİK

# Azərbaycan Dövlət İqtisad Universiteti


**Hacızadə Elşən Mahmud oğlu**

Iqtisad elmləri doktoru, professor

**Bakı şəhəri.** İstiqlaliyyət 6, ADİU, I mərtəbə,

Otaq №. 000

**Tel:** (+99412) 492 - 31 - 21

(+99412) 492 - 62 - 64

**Web a site:** www. elshanhajizadeh.com

**E-mail:** ehm@rambler.ru


